**Dövlət müstəqilliyimizi qazandıqdan sonra televiziya və radio üzərindəki dövlət inhisarı aradan qaldırıldı. Dünya sivilizasiyasının bir hissəsi olan Azərbaycanda azad sözə, plüralizmə, əxlaqi-mənəvi maariflənməyə, ümummilli maraqların ifadəsinə olan tələbat ictimai televiziyanın yaranması məsələsini gündəmə gətirdi.**

**Cəmiyyətin demokratikləşməsi, Azərbaycanın ümumavropa dəyərlərinə qovuşmaq istəyi ictimai televiziyanın yaranmasını labüdləşdirdi. Bu zamində Avropa Şurasının tələbi və Azərbaycan ictimaiyyətinin istəyi ilə ictimai televiziyanın yaradılması kütləvi müzakirəyə çevrildi.**

# Efir məkanında təzə ünvanlar

**Beləliklə, 2004-cü il setyabrın 11-də "İctimai Televiziya və Radio Yayımı haqqında" Azərbaycan Respublikası qanununun qəbul edilməsilə şəffaflıq, qərəzsizlik və ictimai maraq prinsiplərini önə çəkən İctimai Teleradionun yaradılmasına start verildi.**

Qanun İctimai TV-nin müstəqil, tərəfsiz, qərəzsiz və doğru-dürüst informasiya çatdırmasını, plüralizm, dözümlülük, rəngarənglik və başqalarından fərqlənmək prinsiplərini əsas götürür. İctimai Televiziya daxil olduğu teleməkanda rəqabət apararkən uğur üçün keyfiyyəti qurban verməməli, dini və milli tolerantlığı təbliğ etməli, etnik mədəniyyətlərə hörmət hissləri aşılamalı, informasiyalı cəmiyyətin qurucusu olmalıdır.

Əhalinin bütün təbəqələrini dəqiq və qərəzsiz informasiya ilə təmin etmək prinsipini irəli sürən "İctimai Televiziya və Radio Yayımları haqqında" qanuna əsasən bütün sosial qrupların maraqlarını təmin etmək məqsədilə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Milli Elmlər Akademiyası, Mətbuat Şurası, Sahibkarlar Şurası, gənclər təşkilatları, qadın cəmiyyətləri, idman federasiyaları, dini konfessiyalar və yaradıcılıq təşkilatları hər biri iki nəfər olmaqla Yayım Şurası üzvlüyünə namizəd irəli sürdülər.

2005-ci ilin mart ayında parlament qanuna müvafiq olaraq YŞ-nın üzvlərini formalaşdırdı. Yayım Şurasının üzvləri qeyd olunan müxtəlif təşkilatları təmsil etmələrinə baxmayaraq, onlar cəmiyyətin ümumi maraqlarına xidmət edirlər.

Beləliklə, Yayım Şurası üzvləri öz aralarından Cahangir Məmmədlini sədr seçdilər. Növbədə isə İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktorunun seçimi dururdu. Namizədliyi irəli sürülənlərin 5 il televiziya və idarətmə təcrübəsi olmalı, informasiya texnologiyalarına bələd olmalı, Azərbaycanın tarixi, mədəniyyəti, coğrafiyası, milli-mənəvi dəyərləri barədə geniş bilgisi olmalı idi. Beləliklə, 2005-ci il aprelin 16-da YŞ-nın 9 üzvünün 6 səsini qazanan İsmayıl Ömərov İctimai Televiziya və Radio Yayımları Şirkətinə Baş direktor seçildi.

İctimai Televiziyaya baş direktor seçkisindən sonra televiziyanın quruculuq işlərinə başlandı. Baş direktor seçkisindən ötən çox qısa zaman kəsiyində - 2-3 aya analoqu olmayan işlər görüldü. TV məkanında ilk dəfə olaraq işə qəbul qanunda nəzərdə tutulmadığı halda müsabiqə yolu ilə keçirildi və televiziyaya sadiq, peşəkar, yenilikçi, tərəfsiz, azad fikirli jurnalistlərə üstünlük verildi.

Paralel olaraq TV-nin yerləşdiyi binada yenidənqurma işlərinə başlandı. Çox qısa zaman kəsiyində təmir-tikinti işləri görüldü və texniki təchizat məsələləri həll edildi.

Beləliklə, 2005-ci il 29 avqust tarixində İTRYŞ-nın açılış mərasimi gerçəkləşdi. Mərasimdə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev, nazirlər, komitə sədrləri, dövlət və hökumət nümayəndələri, Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusların rəhbərləri, ictimai-siyasi təşkilatların nümayəndələri və digər şəxslər iştirak etdilər.

Açılış mərasimi İctimai Televiziya ilə canlı yayımlandı. İTV-nin baş direktoru İsmayıl Ömərov çıxış edərək televiziyanın açılışı münasibətilə Azərbaycan xalqını təbrik etdi.

Mərasimdə çıxış edən prezident İlham Əliyev İTV-nin Azərbaycan efir məkanında özünəməxsus yer tutacağını və qısa müddət ərzində tamaşaçıların rəğbətini qazanacağını qeyd etdi.

Nəhayət, prezident İctimai Televiziyanın simvolik pultunu işə saldı.

Bununla da Azərbaycan efir məkanına xalqın televiziyası olan ictimai televiziya daxil oldu.

"Yeni gün"lə açılan səhər İctimai televiziya yayıma başladığı bu beş il ərzində tamaşaçıların rəğbətini qazana bildi. Uğurun əsas şərti işlərin peşəkarlara tapşırılması oldu. Hər bir verilişin, proqramın öz məramı, məqsədi və tamaşaçıları var. Bununla yanaşı, bütün proqramların ümumi məqsədə xidmət etməsi də diqqət çəkir. Məzmun, keyfiyyət, yenilik və milli-mənəvi dəyərlərə sadiqlik, ənənələrin qorunması, müasirliyə üstünlük. Bu, ümumi cəhətlərin əsas şərtləridir. Bu prinsiplərin qorunması və paralel aparılması İctimai televiziyanı tərəqqiyə bağladı.

Televiziya tənqidçilərinin əksəriyyəti səhər proqramını mini televiziya adlandırırlar. Bu gün yerli teleməkanda müxtəlif səpkidə səhər proqramları mövcuddur.

"Yeni gün" - İctimai Televiziyanın səhər proqramı belə adlanır. "Yeni gün" həftənin altı günü iki saatlıq efir vaxtı ərzində informasiyadan tutmuş, müxtəlif səpkili rubrikalarla tamaşaçıların görüşünə gəlir. Cəmiyyətin yeddidən-yetmiş yeddiyə bütün təbəqələrinin marağını əks etdirən İctimai Televiziya "Yeni gün" proqramı ilə öz auditoriyasını maarifləndirməyi, mədəniyyətimizi, tariximizi təbliğ etməyi qarşısına məqsəd qoyub.

Proqramımız tamaşaçılar tərəfindən maraqla izlənilən bir sıra daimi rubrikaları ilə efirə çıxır.

Bunlardan "Bu mənəm", "Sənətkar", "Fövqəladə missiya", "Bunu da bilin ki", "Ömür dediyimiz", "Kinokadr", "Paytaxt xəbərləri" artıq kifayət qədər tamaşaçı kütləsinin rəğbətini qazanıb.

"Məmləkətim" rubrikası çərçivəsində Azərbaycan bölgələri ilə tanışlıq, adət-ənənələrinin, folklor nümunələrinin, el sənəti və sənətkarlarının, mətbəxlərinin məhz "Yeni Gün" proqramının studiyasından təqdim olunması tamaşaçılar tərəfindən müsbət qarşılanır.

Proqramın böyük uğur qazanmasının səbəblərindən biri də xarici qonaqlara, ölkəmizdəki səfirlər, diplomatik korpusun nümayəndələrinə yer ayırmasıdır. "Fövqəladə missiya" rubrikasında siz müxtəlif ölkələr haqqında ətraflı məlumat ala, onların Azərbaycanla olan qarşılıqlı əlaqələri barədə informasiyalar əldə edə bilərsiniz. Studiyaya dəvət edilən qonaq - həmin xarici ölkənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri aparıcının suallarını cavablandırır, ölkələrimiz arasındakı münasibətlər haqqında məlumat verir.

"Yeni günün qonaqları" rubrikasında maraqlı insanlar, siyasətçilər, elm və tibb xadimləri günün prioritet mövzuları ətrafında müzakirələr aparır, mədəniyyət və incəsənət ustaları yaradıcılıqlarındakı yeniliklərlə tamaşaçıları mütəmadi olaraq tanış edirlər.

Bundan başqa, "Yeni gün"də sərbəst mövzularda çəkilən süjetlərə də üstünlük verilir. Proqramın canlı və mükəmməl alınmasına çalışılır. Tez-tez aktual mövzularla bağlı studiyaya

telefon bağlantıları edilir və tamaşaçılara canlı efirə qoşulmaq imkanı yaradılır. Beləliklə, hər bir tamaşaçı "Yeni gün"ün iştirakçısına çevrilir.

"Yeni Gün"ün əsas məqsədi gününü yenicə başlayan insanlara xoş əhval-ruhiyyə, əsl ovqat bəxş etməkdir. Nikbinlik isə tamaşaçıda yeni ruh və coşqunluq yaradır.

Sizi narahat edən problemlərin cavabını tapmaq, ölkədə baş verən hadisələr haqqında operativ məlumat almaq və canlı musiqidən zövq almaq istəyirsinizsə səhərlərinizi "Yeni gün"lə açın. "Mədəniyyət xəbərləri"- Lamiyə Səlimovanın təqdimatında olan bu rublikada tamaşaçılar ölkədə baş verən ən son mədəniyyət hadisələrindən xəbər tuturlar.

"Nələr gözlənilir" isə yaxın günlərdə ölkənin mədəniyyət, siyasət və s. həyatında gözlənilən önəmli hadisələrlə bağlı məlumatlar verir.

Səhər proqramının diqqətçəkən görüntülərindən biri də TRT AVAZ-la yaradılan telekörpüdür. Bu əlaqə vasitəsi ilə hər iki ölkənin tanınmış sənətçiləri, mədəniyyət xadimləri bir araya gələrək, maraqlı, yaddaqalan ünsiyyət qururlar. Bu telekörpünün diqqətçəkən məqamları və qonaqları olur. Get-gedə telekörpünün əlaqə vasitələri daha da genişlənir və müntəzəm xarakter alır. Tamaşaçının məhəbbət və rəğbətlə izlədiyi bu telekörpü xalqlarımızın eyni mədəniyyətə, tarixə, milli-mənəvi dəyərlərə malik olduğunu bir daha təsdiqləyir.

**Dünya təcrübəsində televiziya kanallarının ayrı-ayrı kanalları ilə deyil, bütövlükdə özünün xüsusi tip kimi fəaliyyət göstərməsi faktı getdikcə artmaqdadır.**

● **Bəhruz NİFTƏLİYEV,**
***ADMİU-nun televiziya rejissorluğu fakültəsinin magistri***

## Ədəbiyyat

1. Məmmədov Ç.Müasir jurnalistika. Bakı, 2003.
2. Quliyev E. Televiziya: nəzəriyyə, inkişaf meylləri. Bakı, 2004.
3. www.itv.az.

**Резюме**

Статья рассказывает о необходимости создания Общественного телевидения и о его успехах со времени начала своей деятельности. Здесь также рассказано об интересных проектах, автором которых стал телеканал за первые годы оповещания.

Каждая из программ и передач имеет свое содержание, цель, а также зрителя. В программах Общественного телевидения привлекает внимание содержание, качество, новизна и преданность национально-духоным ценностям, бережное хранение традиций, предпочтение современности.

Один из проектов Общественного телевидения, завоевавших симпатию - это "Йени гюнь" ("Новый день"). В статье показывается, что и у этой программы, которую зрители следят с интересом, есть свои рубрики. Этот проект также создавая телеместы с ТРТ АВАЗ предлагает зрителем интересные передачи.

**Summary**

It deals with about necessity of creation of Public Television and its success after the beginning of broadcasting in the article. Also it deals with about interesting projects, created by TV channel which got sympathy of the audience during the TV channel broadcasting. There is itself aim, purpose and audience of each program. It draws attention content, quality, innovation and devotion to the national and moral values, preservation of traditions, preference to modernity in programs made by Public TV.

One of the winning sympathy projects of the the public television is "Yeni gün" which is the morning program. It is shown there is special permanent rubrics of this program, which is very interesting for audience.

"Yeni gün" presents interesting telecastes to audience by creating telebridge with TRT-AVAZ.